# Kiçikyaşlı uşaqların vətəndaşlıq tərbiyəsi bu günün aktual problemi kimi

**Roza Mirzə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** roza-mirza@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** vətəndaşlıq, milli-mənəvi dəyərlər, milli dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlər

**Ключовые слова:** гражданство, национально-нравственные ценности, Национальная государственность, национально-нравственные и общечеловеческие ценности

**Key words:** citizenship, national moral values, national statehood, national moral and universal values

Kiçikyaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsi haqqında məlumatları vətəndaşlıq tərbiyəsi barədə biliklərindən daha zəngin və dərin olur. Bunların hər ikisi mücərrəd anlayışlar olsa da, vətəndaşlıq daha dərin məhfumdur. Çünki "...vətəndaşlıq əsl mənada insanın özündə ideya inamı, həyata şüurlu baxış, əmək işlərində fəal iştirak etmək, ünsiyət və davranışda yüksək mədəniyyət və s. nümayiş etdirmək bacarığında özünü büruzə verir".

Vətəndaşlıq - birlikdə yaşadığın xalqlarla, mənsub olduğun millət və dövlətlə birliyi, əlaqəliyi hiss etmək, onların təhlükəsizliyi və çiçəklənməsi üçün məsuliyyət daşıdığını dərk etmək, vətənin inkişafı naminə konstitusion hüquq və vəzifələrlə tərəqqiyə xidmət etmək deməkdir. Bu xüsusiyyətlərin isə kiçikyaşlı məktəblilərə aşılanması o qədər də asan məsələ deyil. Bu, ümumtəhsil məktəbi ilə ailənin əlbir gərgin fəaliyyətinin nəticəsində həyata keçə bilər.

Vətəndaşlıq tərbiyəsinin məqsədi böyüməkdə olan nəslin ahəngdar inkişafı prosesində vətəndaşlıq duyğuları yaratmaq, o cümlədən, vətəndaş olduğunu onlara dərk etdirməkdən ibarətdir.

Göründüyü kimi, bu duyğuları kiçik məktəblilərdə oyatmaq, onları vətəndaşlıq mövqeyindən tərbiyə etmək hələ kiçik yaşlarından tərbiyənin düzgün qurulmasından çox asılıdır. Bunun üçün onlarda üzərlərinə düşən borcu yerinə yetirməyi aşılamaq daha düzgün olardı: yoldaşlıq borcu, valideyn qarşısında övladlıq borcu, böyüklər qarşısında kiçiklik börcu, müəllim qarşısında şagirdlik börcu və s. vətəndaşlıq tərbiyəsində isə ilk növbədə vətəndaşlıq borcunu dərk edib, onu yerinə yetirmək ön planda durur. Professor Ə.Ə. Ağayevin qeyd etdiyi kimi, vətəndaşlıq borcu dedikdə, cəmiyyətin tələbləri ilə müəyyənləşdirilən vətəndaşlıq vəzifələrinin yerinə yetirilməsinin dərk edilməsinin vacibliyi başa düşülür.

Kiçik məktəblilərdə vətəndaşlıq borcunun dərk olunması və bu amal uğrunda onların tərbiyəsi təkcə ümümtəhsil müəssisələrində deyil, ailədə aparılması mühüm şərtdir. Uşağı ailənin gündəlik həyat-məişət şəraiti, valideynlərlə qarşılıqlı münasibəti, ailədə özünü göstərən müxtəlif təsir vasitələri tərbiyə edir. Ailədə mövcud olan vətəndaşlıq duyğuları təqlid və bənzərliklərlə orada böyüyən uşağa da keçir, müntəzəm və davamlı olarsa, getdikcə vətəndaşlıq tərbiyəsinə çevrilir. Düzgün qurulmuş ailə tərbiyəsi, uşağın ailədə həyat rejiminin səmərəli təşkili belə bir məqsədyönlü tərbiyəni formalaşdıra bilər.

Kiçikyaşlı uşaqların vətəndaşlıq ruhunda tərbiyəsi üçün valideynlərin ailədə nüfuz sahibi olmaları mühüm bir şərt kimi qarşıda durur. Valideyn nüfuzunun əsas cəhəti onun vətəndaş siması, ailəsi, yaxınları, xalqı üçün səmərəli işlər görməsi, valideynlərin işlədiyi kollektivdə, icitmaiyyət arasında, həmçinin öz uşaqlarının yanında nüfuz sahibi olmasının böyük rolu vardır. Uşaqlarının şəxsiyyətinə hörmətlə yanaşmaq, onların maraqlarının nəzərə alışması, münasibətlərdə qayğılı və tələbkar mövqe tutmaq, ailədə sağlam əxlaqi-mənəvi mühitin yaradılması da vətəndaşlıq tərbiyəsini formalaşdıran və inkişaf etdirən şərtlərdən biridir. Kiçik yaşlı uşaqların belə bir mühitdə tərbiyəsi üçün valideynlərin pedaqoji maarifləndirilməsinə böyük ehtiyac vardır. Əlbəttə, valideynlərin vətəndaşlıq tərbiyəsi mövqeyindən maarifləndirilməsi işində milli-regional xüsusiyyətləri, adət-ənənələri, həyat şəraitinin nəzərə alınması işin səmərəliliyini daha da artırmış olur.

Ailənin əsas vəzifəsi cəmiyyətə yararlı vətəndaş yetişdirməkdir. Uşaqlar valideynlərin rəhbərliyi altında ilk həyat təcrübələrini qazanır, ilkin biliklərə yiyələnir, bacarıq qazanırlar. Uşaqlıqdan ailədə məsuliyyətə, işgüzarlığa, doğruluğa yiyələnən insan böyüdükdən sonra fəaliyyətində bu keyfiyyətlərdən bəhrələnir. V.A. Suxomlinskinin dediyi kimi, uşaq ailənin güzgüsüdür. Günəş bir damla suda əks olunduğu, ata və ananın əxlaqi saflığı da uşaqda əks olunur. Deməli, uşağın sonrakı həyat tərzi valideynin tərbiyəsindən asılıdır.

Ailə mühitində böyüyən uşaq sağlam ailə şəraitində, ahəngdar inkişaf yolu keçir. Valideyn kiçikyaşlı uşağın ömrü boyu unudulmayan sağlam vərdişlərə yiyələnməsinə çalışmalıdır. Təcrübə göstərir ki, valideynlərin pedaqoji biliklərə yiyələnməsi, pedaqoji takt və yanaşmadan istifadə etməsi, sağlam əxlaqi-mənəvi dəyərlər daşıyıcısı olması, təmkinliliyi, iradi keyfiyyətləri ilə seçilməsi, tərbiyədə məqsədyönlülüyü nəzərə alması uşaqların ahəngdar inkişafının reallaşmasına şərait yaradır.

Lakin təssüf ki, bəzi ailələrdə tərbiyə sistemi düzgün qurulmur. Ailə tərbiyəsində nöqsanlara yol verilməsi uşaqlarda yalan danışmaq, kobudluq etmək, oğurluq etmək, ətrafdakılara hörmətsizlik və s. kimi mənfi xüsusiyyətlərin yaranmasına gətirib çıxardır. Bu tip uşaqların formalaşmaması üçün valideyn düzgün, məqsədyönlü tərbiyə sistemini qurmalı və məsuliyyət hissini anlamalıdır.

İctimai-pedaqoji fikir nümayəndələri kiçikyaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsini onların şəxsiyyət kimi formalaşmasında mühüm amil hesab etmişlər. İ.H.Pestalotsiyə görə, ailə və vətəndaşlıq sədaqətinin daxili əsasları ruh və həyatdan ibarətdir. Ailə tərbiyəsinin əsasını inam və məhəbbət təşkil edir. Bunlar olmadan mənəvi qüvvələr, ustalıq və peşə qabliyyətləri hər cür narahatlığın tükənməz mənbəyinə çevrilir. Pestalotsi uşağın tərbiyəsində ailənin rolunu yüksək qiymətləndirirdi. O, uşaqların ləyaqətli bir vətəndaş kimi tərbiyə olunmasında əməyin də böyük rolunu qeyd edirdi. Uşaqlarda kiçik yaşdan əməyə məhəbbət hissini aşılamaq lazımdır. Əməyə məhəbbət tərbiyəsinə ehtiyac həyatın tələbidir. Ona görə də kiçik yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsi şəxsiyyəti formalaşdırmağın mühüm tərkib hissəsi hesab edilmiş, hər bir yeniləşən cəmiyyətdə yeni məzmunlu insanın hazırlanmasında əhəmiyyətli rol oynamışdır.

Hazırda ölkəmiz ərazilərimizin düşmən tapdağından azad edilməsi yolunda müqəddəs savaşdadır. Xalqımız erməni mənfurlarının Qarabağdan çıxarılması üçün gərgin döyüşlər aparır. Gənclərimizin öz torpaqları yolunda necə şəhid olduqları kiçik məktəblilərin gözləri önündə baş verir. Döyüşən orduya gücü çatmayan mənfur düşmən dinc sakinləri evlərində qətlə yetirir. Əlbəttə, belə bir mühitdə yaşayan və böyüyən uşaq əsil vətəndaş kimi yetişəcəkdir. Uşaq görür ki, böyük qardaşı torpaqlarını düşmən tapdağından qorumağa getdi, ata-ana oğlunun üzvü olduğu orduya vəsait, ərzaq hazırlayır, nənə və bacısı əsgərlərə corab, şərf toxuyur, baba

isə öz əlləri ilə əkdiyi bağ-bostandan meyvə-tərvəz tədarük edib hərbi hissələrə göndərir. Belə mühitdə böyüyən uşaq vətənpərvər olmazmı, vətəninin sevməzmi, əsil vətəndaşlıq nümunəsi göstərməzmi? Bax, tarix boyu dədə-babalarımız da da belə mühitdə yaşamış, adı dastanlarda əbədiləşən qəhrəmanlar yetişdirmişlər. Əhsən, belə xalqa, əhsən, belə Vətənə!

İndi bütün uşaqlar əllərində bayraq, döyüşdəki əsgərlərimizə əsgər məktubu yazır. Kiçik yaşlı bir məktəblinin məktubundan nümunə: ”Salam əsgər. Sən məni tanımırsan, amma mən səni tanıyıram. Sən Azərbaycan əsgərisən, torpaqlarımızı düşmənlərdən azad edirsən. Mən də böyüyəndə əsgər olacam”.

Və yaxud şagirdlərin dillərində vətənpərvərlik ruhunda şerlər səslənir:

Mənim bircə adım var: əsgərəm bu millətə,
Düşmənlər qoy bürünsün qaranlığa, zülmətə!
Bu gün üsyan edirəm rəzilliyə, möhnətə
Gözlərimdən süzülən bir bax işıqdı, nurdu
Yaşasın Milli Ordu!

**Məqalənin aktuallığı.** Xalqımızın tarixi torpaqlarının azad olunması uğrunda müharibə apardığı bir dövrdə kiçikyaşlı uşaqların vətəndaşlıq tərbiyəsi məqalənin aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərin vətəndaşlıq tərbiyəsinin bu günün tələbləri baxımından araşdırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən pedaqoqlar, tələbə və magistrantlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərləri, Bakı: Mütərcim, 2011.
2. “Azərbaycan müəllimi” qəz., 1997, 4 sentyabr
3. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, 2003.
4. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. ”Xalq qəzeti”, 1996, 6 fevral
5. Təhsil millətin gələcəyidir / M. Mərdanov və Ə. Quliyevin red. ilə. Bakı: Təhsil, 2012.

**Р. Мирза**

## Гражданское воспитание детей раннего возраста как актуальная проблема сегодня

## Резюме

На протяжении всей истории вопрос гражданского воспитания был важным вопросом в воспитании подрастающего поколения. Потому что мощь государства измеряется его высокой моралью, национально-нравственными ценностями, патриотизмом. Систематическое безупречное воспитание детей в семье с раннего возраста - одно из важных условий гражданского воспитания.

**R. Mirza**

# Civil upbringing of children of early age as a topical problem today

## Summary

Throughout history, the issue of civic education has been an important issue in the education of the younger generation. Because the power of the state is measured by its high morals, national moral values, patriotism. Systematic impeccable upbringing of children in a family from an early age is one of the important conditions for civic education.

**Redaksiyaya daxil olub:** 21.10.2020